ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Gürcüstana müvəqqəti işlər vəkili təyin olunub

Yazan Esmira Məmmədova
11.11.18 14:43 -



ABŞ-ın Gürcüstandaki səfirinin vəzifəsini müvəqqəti olaraq, Ros Uilson icra edəcək.

R.Uilson bu gün xarici işlər naziri David Zalkaliani ilə keçirdiyi görüşdə ikitərəfli əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin gələcək perspektivləri barədə müzakirələr aparıb.

Amerkalı vəkil bildirib ki, “ABŞ səfirliyi xanın Elizabet Rudun rəhbərliyi dövründə iki ölkə arasında həqiqətən önəmli işlər həyata keçirlib. Mən də onun başladığı işləri davam etdirəcəm deyə bildirib.

Vəkil həmçinin iki ölkə arasında olan problemli məsələlərin aradan qaldırlması üçün əlindən gələni edəcəyini söyləyib.

Qeyd edək ki, R.Uilson 2005-2008-ci illərdə ABŞ-ın Türkiyədəki, 2000-2003-cü illərdə isə Azərbaycandakı səfiri olub.